# KİYEV MİLLİ LİNQVİSTİK UNİVERSİTETİNDƏ HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN DİLİ VƏ MƏDƏNİYYƏTİ MƏRKƏZİ

2012-ci ildən Kiyev Milli Linqvistik Universitetinin (KMLU) Şərqşünaslıq fakültəsində Azərbaycan dilinin tədrisinə başlanılıb. 2013-cü ilin 29 mart tarixində Ümumilli lider Heydər Əliyevin 90 illik yubileyi ərəfəsində Kiyev Milli Linqvistik Universitetində Heydər Əliyev adına Azərbaycan dili və mədəniyyəti mərkəzinin təntənəli açılışı olub. Mərkəzin açılışında KMLU rəhbərliyi, Bakı Slavyan Universitetinin rəhbərliyi, Azərbaycan Respublikasının Ukraynadakı səfirliyinin, SOCAR-ın Ukraynadakı nümayəndəliyinin, Ukrayna Azərbaycanlıları Konqresinin, Ukrayna Azərbaycanlı Gənclər Birliyinin nümayəndələri, KMLU-nun Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələr iştirak edib. Mərkəz SOCAR-ın köməkliyi ilə texniki dərs vəsaitləri, linqafon kabineti ilə təmin edilib. Mərkəzin kitabxana fondunda Ümummilli lider Heydər Əliyev və Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəaliyyətinə həsr olunmuş nəşrlər, Azərbaycan dili, ədəbiyyatı, tarixi, mədəniyyəti ilə bağlı çoxsaylı kitablar, fotoalbomlar, jurnallar, lüğətlər, elmi məqalələr vardır. Mərkəzin yaranmasında əsas məqsəd Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin, Azərbaycan Dövlətinin Ukraynada təbliğindən ibarətdir.

Heydər Əliyev adına Azərbaycan dili və mədəniyyəti mərkəzi mütəmadi olaraq Azərbaycan Respublikasının Dövlət bayramlarına, Azərbaycan tarixinin faciəvi günlərinə, Azərbaycan mədəniyyəti və ədəbiyyatına həsr olunmuş dəyirmi masalar, elmi konfranslar, tədbirlər keçirir.

**Mərkəz müdiri**

*Şıxızadə İntiqam Əlisahib*

**E-mail:** intigam.shikhizada@gmail.com

**Telefon**: +38 (044) 289-84-95